

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 207 (21.108)

30 oktyabr 2014-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Oktyabrın 29-da Bakıda Gənclər Siyasəti üzrə Birinci Qlobal Forumun rəsmi açılış mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Dövlətimizin başçısı açılış mərasimində nitq söyləyib.

Rəsmi açılışdan sonra forum sessiyalarla öz işini davam etdirib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da BMT-nin İctimai məlumat şöbəsinin rəhbəri Maher Nasseri, BMT Baş katibinin gənclər üzrə elçisi Ahmad Rafi Mohamad Alhendavini, Avropa Şurasının demokratiya üzrə baş direktoru Snejana Samardjiç-Markoviçi və UNESCO Baş direktorunun köməkçisi Lalla Aişa Ben Barkanı qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da Küveytin gənclər məsələləri üzrə dövlət naziri Şeyx Salman Sabah Salem əl-Hamud əl-Sabahı qəbul edib.




## Ulu öndər Heydər Əliyev və Azərbaycan



*Dünən Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində bu mövzuda açıq dərs keçilib. Açıq dərsdə Naxçıvan Tibb Kollecinin tələbələri iştirak ediblər.*

Kollecin tarix müəllimi Rəna Vəliyeva bildirib ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası özünün qədim tarixi, zəngin mədəniyyəti, gözəl təbiəti ilə fəxr etdiyi kimi, onu dünyaya tanıdan dahi şəxsiyyətləri ilə də fəxr edib. Belə şəxsiyyətlərin fövqündə dayanan ulu öndər Heydər Əliyev bütün həyatını Azərbaycanın inkişafına, müstəqilliyinin əldə olunmasına və onun qorunub saxlanılmasına həsr edib.

Qeyd olunub ki, böyük şəxsiyyətin Azərbaycana rəhbərliyinin birinci dövründə ölkəmiz çox qısa bir dövrdə aqrar ölkədən aqrar-sənaye ölkəsinə çevrilib, respublikamızda elm, təhsil, səhiyyə və mədəniyyətin inkişaf etdirilməsinə böyük diqqət göstərilib, mühüm nailiyyətlər əldə olunub. Bu dövrdə müstəqil Azərbaycanın gələcəyi naminə bir çox tarixi addımlar atılıb, gələcəkdə bu müstəqilliyi qoruyacaq milli ordumuz üçün ilkin baza yaradılıb, bütün sahələr üzrə yüksəkixtisaslı kadrların hazırlığı diqqət mərkəzində saxlanılıb.

Vurğulanıb ki, SSRİ kimi nəhəng imperiyanın süqutundan sonra ölkəmizdə daxili sabitlik pozuldu, respublikaya rəhbərlik edən naşı siyasətçilərin səriştəsizliyi nəticəsində vətəndaş qarşıdurması yarandı, torpaqlarımız ermənilər və onların havadarları tərəfindən işğala məruz qaldı. Məhz belə bir çətin dövrdə xalqımız üzünü öz böyük xilaskarına – dahi Heydər Əliyevə tutdu. Çünki belə bir vəziyyətdə ölkəni, dövlətçiliyimizi və müstəqilliyimizi təhlükədən yalnız Heydər Əliyev dühası xilas edə bilərdi. Xalqın çağırışına biganə qala bilməyən xalqımızın böyük oğlu Heydər Əliyev 1993-cü ilin 15 iyun tarixində yenidən siyasi hakimiyyətə qayıtdı. Ümummilli lider Heydər Əliyevin hakimiyyətə ikinci dəfə qayıdışı müstəqilliyimizin qorunması, torpaqlarımızın işğalına son qoyulması, ölkədə əminamanlığın, siyasi sabitliyin bərqərar olunması ilə nəticələndi. Tarix üçün çox qısa zamanda Azərbaycan öz iqtisadi, siyasi gücü ilə dünya dövlətləri sırasında söz sahibi olan bir ölkəyə çevrildi.

Azərbaycanın qədim diyarı Naxçıvan Muxtar Respublikası da uğurlu inkişaf yolu keçdi, intibaha qovuşdu. Ulu öndər Heydər Əliyevin Naxçıvanla bağlı arzularının uğurla həyata keçirilməsi bu gün muxtar respublikanı sürətlə inkişaf edən regiona çevirib. Buna görə də müstəqil Azərbaycan dövləti var olduqca xalqımızın xoşbəxt gələcəyini təmin edən ümummilli lider Heydər Əliyevin adı qəlbimizdə daim yaşayacaqdır.

Sonra tələbələr muzeyin ekspozisiyası ilə tanış olublar.

*Naxçıvan Muxtar Respublikasında gənclərin peşə istiqamətinə cəlbi ilə bağlı həyata keçirilən tədbirlər davamlı xarakter almaqdadır. Bu il sentyabrın 15-də – "Bilik Günü"ndə Şərur Texniki-Peşə və Sürücülük Məktəb kompleksinin istifadəyə verilməsi münasibətilə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri bu barədə demişdir: "Peşəkar kadrlar yalnız ali və orta ixtisas təhsili müəssisələrində hazırlanmır. Bu məsələdə peşə təhsilinin düzgün təşkili də mühüm əhəmiyyətə malikdir".*

## Şərur Texniki-Peşə və Sürücülük Məktəbinin ilk buraxılışı olub

Məktəbdə 11 ixtisas – "elektrik montyoru", "bərbər", "qadın bərbəri", qaz avadanlıqlarının təmiri və istismarı üzrə "çilingər", "kompüter istifadəçisi", "xalçaçı", "traktorçu-maşinist", "qazanxana maşinisti", "aşpaz köməkçisi", "ofisiant", "avtomobil sürücüsü" ixtisasları üzrə tədris aparılır. Bu il həmin ixtisaslar üzrə, ümumilikdə, 200-dən çox müdavim məktəbə qəbul olunmuşdur. Əmək bazarındakı tələb nəzərə alınaraq artıq qazanxana maşinisti kursunun ilk müdavimləri təhsillərini başa vuraraq işə göndərilmişlər. Şərur Texniki-Peşə və Sürücülük Məktəbində müdavimlərin buraxılışı və istehsalata yola salınmasına həsr olunmuş tədbir keçirilmişdir.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Piri Nağıyev tədbirdə çıxış edərək demişdir ki, muxtar respublikada təhsilin inkişafına hərtərəfli qayğı göstərilir. Şərur Texniki-Peşə və Sürücülük Məktəbinin yeni tədris və yataqxana binasının istifadəyə verilməsi də bu sahədə görülən işlərin davamıdır. Tədris korpusunda dərslərin səmərəli təşkili üçün hər cür şərait yaradılmışdır. 360 yerlik binada 17 sinif otağı, 4 laboratoriya, 5 emalatxana, şahmat və kompüter otaqları, müəllimlər otağı, hərbi kabinə, tibb məntəqəsi, idman zalı və digər yardımçı otaqlar vardır. Peşə hazırlığı ilə bağlı təlim prosesində və əmək bazarının tələblərinə cavab verən ixtisaslı kadr hazırlığında informasiya texnologiyalarının imkanlarından istifadə mühüm əhəmiyyət daşıyır. Məktəbdə 11 elektron lövhəli sinif və kompüter otağı vardır. Kompüter otağındakı 21 kompüterin hər biri internetə qoşulmuşdur. Elektron tədris proqramları biliklərin daha səmərəli mənimsənilməsinə imkan verir. Xüsusilə müdavimlər internet şəbəkəsi vasitəsilə təhsil aldıqları peşələr üzrə ətraflı məlumatlar toplaya bilirlər. Bu da mütərəqqi texnologiyalarla işləməyi, kompüter texnikasından sərbəst istifadə etməyi bacaran kadrların hazırlanmasına zəmin yaradır.

Sonda peşə təhsilini uğurla başa vuran 18 nəfər qazanxana maşinistinə şəhadətnamə təqdim edilmişdir.

*Davamlı xarakter alan tikinti-quruculuq və yenidənqurma tədbirləri Ordubad rayonunda 2014-cü ilin ilk 9 ayı ərzində də davam etdirilib.*

## Ordubadda quruculuq tədbirləri davam etdirilir

Bu dövrdə bir neçə obyektin tikintisi və ya yenidən qurulması başa çatdırılıb. Aşağı Əylis kəndində məktəb və kənd mərkəzi, Yuxarı Əylis kəndində məscid binası istifadəyə verilib. Naxçıvan Muxtar Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Ordubad Rayon Şöbəsi cari ilin aprel ayından fəaliyyətini yeni binada davam etdirməyə başlayıb. Rayon mərkəzindən keçən Dübəndi çayı üzərində salınmış şəhər parkında bənd və şəlalə inşa olunub. İndi bu ünvan ordubadlıların asudə vaxtlarının səmərəli keçirilməsi üçün ən çox üz tutulan ünvanlardan birinə çevrilib. Əvvəlki illərdə olduğu kimi, cari ildə də muzeylərin və tarixi-memarlıq abidələrinin əsaslı təmiri diqqət mərkəzində saxlanılıb. Belə ki, akademik Yusif Məmmədəliyevin və yazıçı Məmməd Səid Ordubadinin ev-muzeyləri, Buxzana tarixi-memarlıq abidəsi təmirdən sonra istifadəyə verilib. Ordubad şəhər internat məktəbinin binası da təmir olunmuş obyektlər sırasındadır.

Rayonda tikintisi və təmir-bərpa işləri aparılan obyektlər də az deyil. Ucqar dağ kəndi Nürgütdə kənd mərkəzi, Ordubad şəhərindəki 3 nömrəli tam orta məktəb, aviakassa, Ordubad Rayon Suvarma Sistemləri İdarəsi üçün yeni binalar və Məhəmməd Tağı Sidqinin ev-muzeyi inşa olunur.

Quruculuq tədbirləri çərçivəsində əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması qayğısına da qalınıb. Belə ki, rayon mərkəzindəki biri 50, digəri 36 mənzilli olan iki 5 mərtəbəli binada təmir işləri aparılır.

Tikintisi və yenidən qurulması davam etdirilən obyektlərdə çalışan inşaatçılara yaradılan hərtərəfli şərait görülən işlərin keyfiyyətinə öz müsbət təsirini göstərir.

## Növbəti əmək yarmarkasında 32 nəfərə göndəriş verilib

*Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin Babək Rayon Məşğulluq Mərkəzinin təşkilatçılığı ilə rayonda növbəti əmək yarmarkası keçirilib.*

Tədbiri giriş sözü ilə Babək Rayon Məşğulluq Mərkəzinin direktoru Qurban Tarverdiyev açaraq bildirib ki, "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər)"nın uğurlu icrası əhalinin sosial müdafiəsinin gücləndirilməsində, insanların daimi işlə təmin olunmasında mühüm rol oynayır.

Qeyd olunub ki, vətəndaşların səmərəli məşğulluğunun təmin olunması, onların sosial müdafiəsinin gücləndirilməsi, əmək bazarının inkişafı muxtar respublikamızda da daim diqqət mərkəzində saxlanılan məsələlərdəndir. Bu baxımdan yeni müəssisələrin fəaliyyətə başlamasına, sahibkarlığın inkişaf etdirilməsinə xüsusi önəm verilir. İşaxtaran vətəndaşların, xüsusilə gənclərin işlə təmin olunması sahəsində mühüm əhəmiyyət kəsb edən tədbirlərdən biri də muxtar respublikada müntəzəm olaraq keçirilən əmək yarmarkalarıdır. Yarmarkalara hazırlıq dövründə həyata keçirilən təşkilati işlər, xüsusilə işəgötürənlərlə yaradılan qarşılıqlı əməkdaşlıq münasibətləri bu mühüm aktiv məşğulluq tədbirində işəgötürənlərin, işaxtaran vətəndaşların fəal iştirakını təmin edib. Babək Rayon Məşğulluq Mərkəzi də öz işini bu istiqamətdə qurub.

Babək Rayon İcra Hakimiyyəti başçısının müavini Səlvər Hacıyev çıxışında qeyd edib ki, son illər rayonun sosial-iqtisadi inkişafı istiqamətində həyata keçirilən tədbirlər əhalinin məşğulluğuna müsbət təsir göstərib, bunun da nəticəsində yüzlərlə insan müvafiq işlə təmin olunub. Keçirilən əmək yarmarkalarına işaxtaran insanların marağının böyük olması onu göstərir ki, işaxtaranlarda bu yarmarkalarda ixtisaslarına müvafiq iş tapmalarına böyük inam vardır.

İşaxtaran vətəndaş Turanə Kərimova tədbirin təşkilatçılarına minnətdarlığını bildirib.

Qeyd olunub ki, belə tədbirlərdə işaxtaran vətəndaşlar yerli məşğulluq orqanlarının xidmətlərindən daha çox bəhrələnir, işəgötürən müəssisələrin məsul nümayəndələri ilə birbaşa ünsiyyət yaratmaq imkanı qazanırlar.

Sonra yarmarkaya gələnlər onlara təqdim olunan vakant iş yerləri ilə tanış olublar. 98 boş iş yerinin çıxarıldığı yarmarkada 32 nəfərə işə göndəriş verilib.

Qeyd edək ki, növbəti əmək yarmarkası bu gün Şərur rayonunda keçiriləcək.

**Xəbərlər şöbəsi**

***XX** əsrin sonunda Azərbaycanın ictimai-siyasi və sosial-iqtisadi həyatının bütün sahələrində xüsusi əhəmiyyət kəsb edən köklü dəyişiklik baş vermiş və Azərbaycan öz dövlət müstəqilliyini əldə etmişdir. Müstəqil Azərbaycanın qarşısında duran ilk vəzifə bütün ölkənin maraqlarına cavab verən iqtisadi inkişaf istiqamətlərini müəyyənləşdirməkdən ibarət idi. Ölkənin malik olduğu imkanlardan və təbii sərvətlərdən səmərəli istifadə etməklə iqtisadiyyatın sahə strukturunun təkmilləşdirilməsi, istehsal olunan məhsulların rəqabətədavamlı son məhsul kimi dünya bazarına çıxarılması, idxalı əvəz edən məhsul istehsalının artırılması, regionlar arasında yaranmış fərqlərin aradan qaldırılması məqsədilə regional inkişafın tarazlaşdırılması dövlət siyasətinin əsasını təşkil edirdi.*

# Növbəti regional siyasətin reallaşdırılması

## muxtar respublikanın sosial-iqtisadi tərəqqisinə möhkəm zəmin yaradır



Tarazlı inkişaf dedikdə iqtisadiyyatın sahədaxili və sahələrarası nisbətlərinin qorunması, iqtisadi inkişaf məqsədlərinin təmin olunmasına əlverişli şəraitin yaradılması, əmtəə, kapital və əmək bazarında tələb və təklifin bərabərliyi nəzərdə tutulur. Tarazlı inkişafın əsasını iqtisadi potensialdan effektiv istifadə olunması ilə xarici iqtisadi əlaqələrin müsbət saldosunun və məşğulluq səviyyəsinin təmin olunması, ekoloji tarazlığın qorunması təşkil edir. Bütün bu məsələlərin həlli tarazlı inkişafın vasitələri olan xarici iqtisadi siyasət, pul-kredit siyasəti, ekoloji, struktur və regional siyasətin həyata keçirilməsi nəticəsində mümkündür.

Dövlətin sosial-iqtisadi siyasətinin mühüm istiqamətlərindən birini regional inkişaf siyasəti təşkil edir. Regional siyasətin reallaşdırılması vasitələrindən biri məqsədli kompleks proqramların hazırlanması üsuludur. Regional proqramlar məqsədli kompleks proqramlarının bir növüdür. Bu proqramlar problemlərin həll edilməsi üçün resursların cəmləşdirilməsini, həmçinin elmi-texniki, sosial-iqtisadi inkişafın regional strategiyasının idarəedilməsi və tənzimlənməsini təmin edir. Son illər regionların inkişafı sahəsində əhəmiyyətli uğurlara imza atılması bu istiqamətdə həyata keçirilən dövlət siyasətinin səmərəliliyini təsdiqləyir.

Azərbaycan dövlətinin qarşısında duran əsas vəzifələrdən biri də regionların iqtisadi sərvətlərinin dövriyyəyə cəlb edilməsilə neftdən gələn gəlir hesabına qeyri-neft sektorunun inkişaf etdirilməsidir. Bu regional siyasətin strateji məqsədləri respublikanın əmək ehtiyatlarından, təbii ehtiyatlardan, maliyyə imkanlarından, xarici investisiya və elmi-texniki potensialdan səmərəli istifadə etməklə müxtəlif təsərrüfatçılıq formalarının inkişafına və iqtisadi rayonlarda onların daha səmərəli yerləşdirilməsinə nail olmaqdan ibarət idi. Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən regionların iqtisadiyyatının gücləndirilməsi məqsədilə təsdiq edilmiş Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına xidmət edən (2004-2008, 2009-2013-cü illər) dövlət proqramları mükəmməl bir konsepsiya kimi həyata keçirilərək özünü doğrultmuşdur. Son on ildə ölkə üzrə Ümumi Daxili Məhsul 3,2 dəfə, qeyri-neft sektoru isə 2,6 dəfə artmışdır.

Dövlətin regional sosial-iqtisadi siyasəti Naxçıvan Muxtar Respublikası qarşısında da perspektiv vəzifələr qoymuş, onun yerinə yetirilməsini təmin edəcək idarəetmə və tənzimləmə mexanizmi hazırlanmış, tətbiqi stimullaşdırılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 9 iyun 2005-ci il tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)" və 2009-cu il 28 may tarixli Fərmanı ilə "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq olunmuşdur. Bu proqramların həyata keçirilməsi muxtar respublikanın sosial-iqtisadi həyatında əsaslı bir dönüş yaratmışdır. Proqramların uğurlu icrası nəticəsində ciddi iqtisadi uğurlara nail olunmuş, sürətli inkişaf üçün zəngin potensial formalaşdırılmış, muxtar respublika iqtisadiyyatında həyata keçirilən tarazlaşdırılmış iqtisadi siyasət öz bəhrəsini vermişdir. Proqramların icrası muxtar respublika iqtisadiyyatının inkişafında mühüm əhəmiyyət kəsb etməklə makroiqtisadi sabitliyin təmin olunması, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, yeni müəssisələrin və iş yerlərinin yaradılması, kommunal xidmətlərin yüksəldilməsi, əhalinin maddi rifah halının daha da yaxşılaşdırılması ilə nəticələnmişdir.

Regional sosial-iqtisadi inkişafda yüksək tempin davamlılığını təmin etmək məqsədilə operativ və səmərəli tədbirlərin həyata keçirilməsi artıq dövrümüzün reallığı ilə bağlı olduğu üçün ölkəmizdə 2014-2018-ci illəri əhatə edən üçüncü dövlət proqramı qəbul edilmişdir. Yeni dövlət proqramının muxtar respublikada reallaşdırılması üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 1 sentyabr tarixli Fərmanı ilə "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq olunmuşdur. Bu proqram yaxın beş il ərzində bütün sahələrdə inkişafın perspektiv əsaslarını formalaşdırmaqla muxtar respublikanın yeni inkişaf mərhələsinin əsasını qoyur. Naxçıvan Muxtar Respublikasının inkişafının yeni mərhələsinin əsas hədəfi iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsinə və dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyasına nail olmaqla yaxın beş ildə regionda dinamik sosial-iqtisadi inkişafın davamlılığını təmin etməkdir.

İki böyük dövlət proqramının həyata keçirilməsi nəticəsində iqtisadi artımın makroiqtisadi göstəricilərindən biri olan Ümumi Daxili Məhsul ötən 10 ildə 13,9 dəfə, hər bir nəfərə düşən Ümumi Daxili Məhsul 12 dəfə yüksəlmişdir. Bu göstərici insanların yaxşı yaşaması üçün lazım olan əsas şərtlərdən biri olub, iqtisadi fəaliyyətin təkmilləşdirilmiş ölçüsüdür. Hazırda Ümumi Daxili Məhsulun tərkibində əsas yeri 87 faizlik payla özəl sektor tutur. Bu da muxtar respublikada sahibkarlıq fəaliyyəti üçün əlverişli biznes mühitinin yaradılması və sahibkarlıq fəaliyyətinin stimullaşdırılması ilə istehsal və xidmət sahələrinin əhatə dairəsinin genişləndirildiyini göstərir. İqtisadiyyatın daha da inkişaf etdirilməsi və istehlak bazarında yerli məhsulların payının artırılmasına nail olunması olduqca əhəmiyyətlidir. Hər bir regionda uzunmüddətli və dayanıqlı iqtisadi yüksəlişin əsasını müəyyənləşdirən faktor kiçik və orta sahibkarlığın inkişafı səviyyəsidir və sivilizasiyalı bazar iqtisadiyyatının formalaşmasının ən başlıca meyarlarından biridir. Muxtar respublikanın inkişafı, ilk növbədə, sahibkarlığın inkişafından asılı olduğu üçün qarşıdakı beşillikdə də bu fəaliyyətin dəstəklənməsi zəminində onların maliyyə təminatının artırılması və güzəştli kreditlərin verilməsinin davam etdirilməsi diqqət mərkəzində saxlanılacaq. Eyni zamanda biznes infrastrukturunun müasir tələblər səviyyəsində formalaşdırılması, bazarda azad rəqabət prinsiplərinin qorunub saxlanması, sahibkarlıq fəaliyyətinin informasiya təminatı sisteminin müasir tələblər səviyyəsində qurulması, ixracyönümlü məhsulların xarici bazarlarda mövqeyinin gücləndirilməsi kimi tədbirlərin icra olunması proqramda öz əksini tapmışdır.

Bu gün artıq muxtar respublikada yerli məhsulların rəqabət qabiliyyətini artırmaqla ixraca nail olunmuş, sahibkarlıq subyektlərinin beynəlxalq əlaqələrinin genişləndirilməsi və yerli istehsal məhsullarının xarici ölkələrdə tanıdılması üçün sahibkarların xarici ölkələrdə keçirilən biznes forumlarda, konfrans və sərgilərdə iştirakı təmin edilmişdir. Hazırda muxtar respublikada 350 növdə məhsul istehsal olunur və yerli xammala əsaslanan istehsalın günbəgün artması nəticəsində artıq 336 növdə məhsula olan tələbat yerli istehsal hesabına ödənilir. Tələbatdan artıq istehsal olunmuş məhsulun ixraca yönəldilməsi nəticəsində 2009-cu ildən etibarən ixrac idxalı üstələmiş, xarici ticarət dövriyyəsində müsbət saldo yaranmışdır. Həmçinin son 10 ildə xarici ticarət dövriyyəsi 13,9 dəfə artmışdır. Növbəti proqramda əsas məqam məhsulun beynəlxalq standartlara uyğunluğunun təmin edilməsidir.

Davamlı inkişafın təmin edilməsi üçün təkcə iqtisadi artım deyil, eyni zamanda ətraf mühitin qorunması, əhalinin sağlamlığı, yüksək həyat şəraitinin təmin edilməsi, təbii və insan ehtiyatlarından səmərəli istifadə edilməsi, məşğulluq sisteminin inkişafı nəticəsində işsizlik və yoxsulluq səviyyəsinin aradan qaldırılması kimi sosial məsələlər vacib şərt hesab olunur. İstehsal və xidmət müəssisələrinin çoxalması məhsul istehsalının həcmi və məşğulluq səviyyəsinin yüksəlməsi ilə nəticələnir ki, bu da əhalinin maddi rifahını yaxşılaşdırır. Proqramların icrası ərzində muxtar respublikada 58 mindən çox yeni iş yeri yaradılmış, nəticədə, əhalinin gəlirləri 10,2 dəfə, bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 9,8 dəfə yüksəlmişdir. Qədim diyarımızda əmək bazarının tənzimlənməsi və əhalinin səmərəli məşğulluğunun təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" təsdiq edilmişdir. Proqramın məqsədi əmək bazarında tələb və təklifin real vəziyyətinin qiymətləndirilməsi ilə əhalinin səmərəli məşğulluğunun inkişafına, əmək bazarının tələblərinə uyğun peşə hazırlığına, işaxtaranların, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin məşğulluğunun təmin edilməsinə köməklik göstərilməsinə, əlillərin əmək bazarına inteqrasiyasının təmin edilməsinə, onların məşğulluq səviyyələrinin artırılmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsindən ibarətdir. Görülən tədbirlərin davamı kimi növbəti illərdə də məşğulluq səviyyəsinin daha da artırılması və yeni iş yerlərinin açılması üçün sahibkarlığın inkişaf etdirilməsinə dövlət maliyyə dəstəyinin davam etdirilməsi, əhalinin peşə hazırlığının yüksəldilməsi, əmək yarmarkalarının keçirilməsi, kənd yerlərində sosial və kommunal infrastrukturun daha da inkişaf etdirilməsi yolu ilə əhalinin məskunlaşma səviyyəsinin yüksəldilməsi kimi tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

ÜDM-in strukturunda ilk yerə sənaye sahəsinin 29 faizlik payla sahib olması son 10 ildə muxtar respublikanın əldə etdiyi ən böyük nailiyyətlərdən biridir. Muxtar respublika artıq sənaye regionu kimi tanınır və təhlil edilən dövr ərzində sənaye məhsulları istehsalı 49 dəfə yüksəlmişdir. Sənayeləşmənin bu cür yüksək proseslə davam etməsinə muxtar respublikanın malik olduğu zəngin təbii ehtiyatlar geniş baza yaratdığından yeni sənaye sahələrinin yaradılması ilə keyfiyyətli məhsul istehsal etmək, müasir texnologiyalardan istifadə olunmaqla və məhsul çeşidlərini yeniləməklə onun rəqabət qabiliyyətini artırmaq nəinki daxili bazara, həm də xarici bazara inteqrasiyanı təmin etmək dövlətin iqtisadi siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Aparılan iqtisadi siyasətin davam etdirilməsi və sənayenin modernləşməsi istiqamətində islahatların həyata keçirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 6 iyun tarixli Fərmanı ilə "Sənaye parkları haqqında Əsasnamə" təsdiq olunmuşdur. Təsdiq edilmiş Əsasnamə sənaye parkının yaradılması üçün qanunvericilik bazası olaraq, onun idarə edilməsi və bu ərazidə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı məsələləri tənzimləyərək muxtar respublikada sənayeləşmənin yeni mərhələsinin başlanğıcını qoyur. Növbəti proqram təkcə yeni sənaye müəssisələrinin yaradılması deyil, həm də onların beynəlxalq standartlar və müasir texnologiyalar əsasında qurulmasını tələb edir. Dağ-mədən sənaye müəssisələrinin fəaliyyətinin bərpası, texnoparkların, sənaye komplekslərinin, sənaye şəhərciklərinin və tibb sənayesinin yaradılması kimi əhəmiyyətli tədbirlərin həyata keçirilməsi də proqramda öz əksini tapmışdır.

Dövlət proqramlarının icrası dövrü ərzində kənd təsərrüfatında məhsul istehsalının stimullaşdırılması, əhalinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi istiqamətində görülən işlər də regionların iqtisadi mənzərəsinin dəyişməsində əhəmiyyətli rol oynamış, muxtar respublikada kənd təsərrüfatı məhsulları istehsalı son 10 ildə 4,7 dəfə artmışdır. Əldə olunan nəticədə "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" və "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" müstəsna rol oynamışdır. Yeni emal müəssisələrinin yaradılması, məhsul istehsalçılarına dövlət maliyyə yardımının göstərilməsi, güzəştli şərtlərlə gübrə satışının təşkili, məhsulun satışı üçün yarmarkaların keçirilməsi kənd təsərrüfatı sahəsində məhsul istehsalının həcminin ilbəil artmasına səbəb olmuşdur. Ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi və daha da yaxşılaşdırılması, təbii fəlakətlər zamanı ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə dövlət ehtiyatlarının yaradılması zəruri olduğu üçün muxtar respublikada taxılı uzun müddət saxlamağa imkan verən anbarların həcmi 27 min tona, kənd təsərrüfatı məhsullarının saxlanması və satışını təmin edən soyuducu anbarların sayı 17-yə, tutumu isə 12 min tona çatdırılmışdır. Növbəti beş il ərzində yerli və xarici investisiyaların cəlb edilməsi ilə ərzaq məhsulları istehsalı həcminin artırılması və keyfiyyətinə ciddi nəzarətin davam etdirilməsi, baytarlıq, texniki nəzarət, sanitar və fitosanitar tədbirlərin gücləndirilməsi, tələbatdan artıq istehsal edilən kənd təsərrüfatı məhsullarının ixracının stimullaşdırılması, torpaqların meliorativ vəziyyətinin sağlamlaşdırılması, mövcud su resurslarından istifadə imkanlarının genişləndirilməsi, suvarma-drenaj şəbəkələrinin inkişaf etdirilməsi, maliyyə dəstəyinin gücləndirilməsi, ərzaq və digər kənd təsərrüfatı malları bazarlarının qorunması, maddi-texniki bazanın möhkəmləndirilməsi tədbirlərinin reallaşdırılması davam etdiriləcək. Kənd təsərrüfatı sahəsində sığorta sisteminin inkişaf etdirilməsi istehsalın fasiləsizliyini təmin etmək və maddi itkilərin əvəzinin ödənilməsi ilə istehlakçılar üçün stimul yaradacaq. Üzümçülük plantasiyalarının salınması, baramaçılığın bərpa edilməsi, balıqçılığın inkişaf etdirilməsi emal sənayesinin xammal ehtiyatını təmin etməklə məhsul istehsalının artırılmasına və ixrac istiqamətində yönəldilməsinə təkan verəcək.

Deyilənlərlə yanaşı, informasiya və kommunikasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi, turizmin inkişafı, elektrik və qaz təsərrüfatında səmərəliliyin yüksəldilməsi, mənzil-kommunal təsərrüfatının inkişafı, nəqliyyat xidmətlərinin keyfiyyətinin artırılması, ekoloji tarazlığın, əhalinin sosial müdafiəsinin təmin edilməsi və sosial sahələrin inkişaf etdirilməsi, təhsil, səhiyyə, bədən tərbiyəsi və idmanın inkişafının dəstəklənməsi, mədəni irsin qorunması kimi əhəmiyyətli məsələlərin həlli üçün perspektiv tədbirlərin yerinə yetirilməsi proqramda nəzərdə tutulmuşdur.

*Beləliklə, yeni proqramda islahatların modernləşməsi istiqamətlərinin əks olunması onun əhəmiyyətini daha da artırır. Əmin ola bilərik ki, bu proqram da növbəti beşillikdə yeni iqtisadi meyarları müəyyən etməklə makroiqtisadi dinamikanı möhkəmləndirəcək və qarşıdakı mərhələdə inkişafın sürətlənməsini təmin edəcək. Artıq təcrübə göstərir ki, muxtar respublikamızın gələcək inkişafına möhkəm zəmin yaradan, elmi-təcrübi cəhətdən əsaslandırılmış bu dövlət proqramının icrası da uğurla həyata keçiriləcək və sosial-iqtisadi tərəqqi davam etdiriləcəkdir.*

**Mehriban İMANOVA**
***iqtisad üzrə fəlsəfə doktoru***




# “Naxçıvan 90 il” adlı yeni nəşr muxtar respublikanın yubileyinə dəyərli töhfədir

*“Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası milli dövlətçilik tariximizin, elmi, ədəbi-mədəni irsimizin formalaşmasında, zənginləşməsində mühüm rol oynamışdır. Şəhərsalma mədəniyyətinin 5 min il yaşının faktlarla sübut edildiyi bu qədim oğuz yurdu bəşəriyyətin ilkin beşiklərindən hesab olunur. Buradakı Gəmiqaya təsvirləri, qədim duz mədənləri, I və II Kültəpələr, Xaraba Gilan, Ovçular təpəsi və digər tarixi məkanlardan tapılmış maddi-mədəniyyət yadigarları hər daşı tarix çağıran Azərbaycan elinin möhtəşəm keçmişindən soraq verir”.*

Bu fikirlər Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının və Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin birgə dərc etdirdiyi Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş “Naxçıvan 90 il” adlı kitab-albomun annotasiyasında yazılıb. Mətn müəllifləri İntiqam Hümbətov, Zöhrə Əliyeva, Rəşad Əliyev və Fariz Yunisli olan nəfis tərtibatlı nəşrdə minilliklərdən boylanan Naxçıvanın tarix və mədəniyyət abidələri, turizm potensialı, müasir inkişafı, ecazkar təbiəti öz əksini tapıb.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında” 14 yanvar 2014-cü il tarixli Sərəncamının icrasına dair Tədbirlər Planına əsasən nəşr olunan kitab-albomun ilk səhifəsində ölkə Prezidentinin adıçəkilən sərəncamı verilib.

Qədim diyarın tarixi, sahib olduğu mədəni irs və turizm potensialı haqqında müfəssəl məlumat verilən kitab-albomda muxtar respublikanın tarixinə, turistik məkanlarına dair maraqlı fotoşəkillər dərc olunub.

Əvvəlcə “Naxçıvan” adının mənşəyi, bu qədim diyarın tarixi barədə məlumat verilir. Bildirilir ki, “Naxçıvan” sözünün mənşəyi haqqında xalq etimologiyasına və tarixi qaynaqlara görə, müxtəlif fikirlər mövcuddur. “Nəqşi-cahan” (Dünyanın bəzəyi), “möcüzəli sular diyarı” (“Naxçuana/Naxçuan”) şəklində izah olunan bu qədim yurd yerinin adının Nuh Peyğəmbərlə, daha doğrusu, “Dünya tufanı” ilə də bağlı olduğu kitab-albomda əks olunan faktlardandır.

Naxçıvan diyarının beş minillik şəhər mədəniyyətinə malik olduğunu sübut edən faktlardan olan Gəmiqayadakı qayaüstü təsvirlərin, Möminə xatın, Yusif Küseyir oğlu və Qarabağlar türbələrinin, Nuh Peyğəmbərin məzarüstü türbəsinin, “Xan Sarayı” Dövlət Tarix-Memarlıq Muzeyinin, Əlincə və Gülüstan qalalarının, Xanəgah Abidə Kompleksinin, Qeysəriyyə mədrəsəsinin şəkilləri verilən kitab-albomda oxucular Naxçıvan diyarının muxtariyyət statusu haqqında geniş və müfəssəl məlumat əldə edə bilərlər. Naxçıvan torpağının X əsrin sonlarından bu günümüzə qədər keçdiyi tarixi yol haqqında yeni nəşrdə verilən xəritələr də oxucuda aydın və ilkin təsəvvür yaradır. Bu xəritələr qədim Naxçıvanımızın tarixən əhatə etdiyi əraziləri göstərməklə yanaşı, bu ərazidə hakim olmuş dövlətlərdən, buradakı idarəçilik üsullarından, zaman-zaman ermənilər tərəfindən işğal olunmuş tarixi Azərbaycan torpaqlarından, tarixi və mədəni abidələrdən soraq verir. Kitab-albomda verilən xəritələr içərisində bir xəritə diqqəti xüsusilə cəlb edir ki, bu, 1918-1919-cu illərdə mövcud olmuş Naxçıvan Araz-Türk Respublikasının xəritəsidir. Həmin xəritədən məlum olur ki, o zamankı Araz-Türk Respublikasının ərazisinə indiki Naxçıvan Muxtar Respublikasının ərazisi ilə bərabər, XX əsrin əvvəllərində ermənilər tərəfindən işğal olunmuş Sürməli qəzası, Üçmüəzzin qəzasının bir hissəsi, Sərdarabad, İrəvan qəzasının bir hissəsi (Uluxanlı – Zəngibasar, Qəmərli – Gərnibasar, Vedi – Vedibasar), Mehri bölgəsi daxil olub. Araz-Türk Respublikasının sahəsi 8696 kvadratkilometr, əhalisi isə 1 milyondan çox idi.

Yeni nəşrdə Naxçıvan Muxtar Respublikasının yubileylərinin keçirilməsini əks etdirən fotoşəkillərə də yer verilib.

Kitab-albomun Naxçıvan tarixi üçün əhəmiyyət kəsb etdiyi digər bir məqamı isə səhifələrində xalqımızın böyük oğlu, dahi rəhbər Heydər Əliyevin 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi, Naxçıvan, eləcə də ölkəmiz üçün tarixi qərarlar qəbul etdiyi dövrü fotoşəkillərlə əks etdirməsidir. Burada hələ Sovetlər Birliyinin yaşadığı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının və Ali dövlət hakimiyyəti orqanının adının dəyişdirilməsi, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi təsis edilməsi ilə bağlı dahi rəhbərin Sədrliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1990-cı il 17 noyabr tarixli birinci sessiyasının qəbul etdiyi tarixi qərarların mətnləri və ümummilli lider Heydər Əliyevin 1996-cı və 2002-ci illərdə Naxçıvana səfərlərini əks etdirən fotoşəkillər dərc edilib.

Sonrakı səhifələrdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2004, 2009, 2010 və 2014-cü illərdə Naxçıvan Muxtar Respublikasına səfərləri zamanı keçirilən açılış mərasimlərində iştirakını əks etdirən fotoşəkillər verilib. Həmçinin kitab-albomda müasir Naxçıvanın sosial-iqtisadi inkişafının əməli nəticələri olan təhsil, səhiyyə, mədəniyyət müəssisələrinin və sosial obyektlərin bir qisminin fotoşəkilləri də yerləşdirilib.

✍ Səyyar MƏMMƏDOV

*Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodik Mərkəzi Babək Rayon Mədəniyyət və Turizm Şöbəsi ilə birlikdə rayon Mədəniyyət Evində Məhəmməd Tağı Sidqinin 160 illik yubileyi ilə əlaqədar konfrans keçirib.*

# Görkəmli maarif xadiminin yubileyi qeyd olunur

Tədbiri giriş sözü ilə Babək Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdir əvəzi Niyaz İsmayılov açıb. Qeyd edilib ki, digər ədib və ziyalılarımız kimi, maarif fədaisi, şair Məhəmməd Tağı Sidqinin də fəaliyyəti, yaratdığı əsərlər dövlətimiz tərəfindən yüksək qiymətləndirilir, onun irsi dərindən və hərtərəfli öyrənilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2014-cü il 20 avqust tarixli “Görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqinin 160 illik yubileyinin keçirilməsi haqqında” Sərəncamı bu baxımdan mühüm əhəmiyyətə malikdir. Həmin sərəncam muxtar respublikanın ziyalıları tərəfindən görkəmli şəxsiyyətlərimizə, ədib və şairlərimizə, onların fəaliyyətinə və yaradıcılığına verilən qiymət kimi dəyərləndirilir.

Vurğulanıb ki, Məhəmməd Tağı Sidqinin zəngin, çoxşaxəli yaradıcılığı, qaynar fəaliyyəti XIX əsrin ikinci yarısı və iyirminci yüzilliyin əvvəllərində Azərbaycanda maarifin, ədəbiyyatın, filoloji fikrin, mədəniyyətin inkişafında mühüm rol oynayıb. Elmi-pedaqoji dəyərə malik yeddi dərsliyin müəllifi olan görkəmli maarif xadimi ədəbi yaradıcılıqla da məşğul olub. Onun qələminin məhsulu olan uşaq nəsrinin ilk mükəmməl nümunələri, ədəbi-fəlsəfi traktat, poeziya və tərcümə materialları Azərbaycanda maarifçi ədəbiyyatın inkişafında mühüm rol oynayıb.

Ordubad rayonunda anadan olan M.T.Sidqi mədrəsə təhsili alıb, klassik Şərq poeziyasını və fəlsəfəsini mükəmməl öyrənib. Pedaqoji fəaliyyəti ilə bilavasitə bağlı olan ədəbi irsi qəzəllərdən, “Məsnəviyyati-mənəviyyə” adlı irihəcmli mənzumədən, “Kərbəlayi Nəsir” mənzum hekayətindən, “Heykəli-insana bir nəzər” ədəbi-fəlsəfi traktatından və 20-dən çox hekayədən ibarətdir. Sidqi Azərbaycan uşaq nəsrinin ilk yetkin nümunələrini yaradan sənətkarlarımızdan biridir. “Məktəb hekayələri” kimi tanınan bu əsərlərdə o, özünün maarifçilik ideyalarını, pedaqoji görüşlərini, yüksək mənəvi-əxlaqi keyfiyyətləri bədii şəkildə təbliğ edir. M.T.Sidqi publisistika sahəsində də fəaliyyət göstərib, “Tərcüman”, “Əxtər”, “Həblülmətin”, “Kaspi”, “Nasiri” kimi qəzetlərlə əməkdaşlıq edib. Ana dilində “Çıraq” adlı qəzet çıxarmaq üçün təşəbbüs göstərib.

Sonra Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun elmi katibi, filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımovun, Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodik Mərkəzinin direktoru Nizami Əzizəliyevin, Babək Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Fatma Bağırovanın çıxışları olub.

Sonda tədbir iştirakçıları Babək Rayon Mədəniyyət Evinin foyesində təşkil edilmiş “Məhəmməd Tağı Sidqi – 160” adlı sərgiyə baxıblar.

✍ Sona MİRZƏYEVA

***Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə müalicəvi suların olduğu yerlərdə səhiyyə ocaqlarının, sanatoriyaların tikilməsi istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilib. Lakin ötən əsrin 90-cı illərinin əvvəllərində belə səhiyyə müəssisələrinin də fəaliyyəti dayandı.***



# Darıdağ Arsenli Su Müalicəxanasına müraciət edənlərin sayı ilbəil artır

*Bu, müalicəxanada tibbi xidmət göstərilməsi üçün yaradılan yüksək şəraitin nəticəsidir*

Ulu öndərimizin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra yaradılan sabitlik və iqtisadi inkişaf təbii üsullarla müalicə məqsədilə inşa olunmuş səhiyyə ocaqlarının da yenidən qurulmasına geniş imkanlar açıb. Ölkəmizin ayrı-ayrı regionlarında olduğu kimi, muxtar respublikamızda da bu istiqamətdə kompleks tədbirlər həyata keçirilib, yeni səhiyyə ocaqları ilə yanaşı, təbii üsulla müalicə məqsədilə yaradılmış Duzdağ Fizioterapiya Mərkəzi və Darıdağ Arsenli Su Müalicəxanası yenidən qurularaq istifadəyə verilib.

Böyük debitə malik olan yeraltı sərvətlərdən biri də Darıdağ arsenli mineral suyudur. Culfa şəhərindən 8-9 kilometr şimal-şərqdə, Darıdağın sıldırım yamacları arasında, dəniz səviyyəsindən 800-900 metr hündürlükdə yerləşən Şorsu dərəsində “Şəfa bulağı” adlanan əraziyə yaxınlaşdıqda qurucluq ərməğanlarının təbiət mənzərələri ilə həmahənglik təşkil etdiyi ecazkar bir mənzərə ilə qarşılaşırsan. Naxçıvan-Ordubad magistralından müalicəxanayadək olan avtomobil yolu asfalt-beton örtük salınmaqla yenidən qurulub, burada yeni bina tikilib, müalicə olunanların istirahəti üçün hərtərəfli şərait yaradılıb.

Darıdağ Arsenli Su Müalicəxanasının direktoru Zəfər Məmmədov bizimlə söhbətində bildirdi ki, 32 kəşfiyyat quyusundan və 5 bulaqdan ibarət olan arsenli su bir çox xəstəliklərin sağalmasında mühüm rola malikdir. Darıdağ arsenli suyunun araşdırılması hələ 1830-cu ildə Q.Boskoboynikov, 1868-ci ildə Arxilov və Sulkidze tərəfindən aparılıb, 1928-ci ildə isə Lanqvaqren bu suyun geoloji kəşfi ilə yanaşı, kimyəvi tərkibini də öyrənib. Sonralar da Darıdağ suyunun kimyəvi, fiziki, balneoloji, müalicəvi və başqa xüsusiyyətləri Azərbaycan Elmi-Tədqiqat və Fiziki-Təbii Amillərlə Müalicə İnstitutunun, Azərbaycan Dövlət Tibb Universitetinin, Azərbaycan Milli Elmlər Akademiyasının Təbii Amillərlə Müalicə Bölməsinin əməkdaşlarından akademik M.Qaşqay, A.Qarayev, professor Ə.Əsgərov, M.Əfəndiyev, Ş.Həsənov və başqaları tərəfindən ətraflı öyrənilib. Son dövrlərdə isə professor Ə.Musayev öz təcrübələrində aşkar edib ki, Darıdağ arsenli isti suyunda müalicə olunan xəstələr üçün müəyyən edilmiş bir seansın müddəti 10-12 dəqiqədən artıq olmamalıdır. Əks halda, ürək qan damarlarının genişlənməsi baş verər. Darıdağ suyu karbonqazlı, mərgümüşlü, yüksək minerallaşdırılmış xlorlu-hidrokarbonatlı-natriumludur: Kudova (Polşa), Dürkgeym (Almaniya), Sineqorsk (Saxalin) sularının analoqudur. Lakin suyun tərkibindəki mineral duzların mütənasibliyi ilə Darıdağ suyu onlardan üstündür.

İnsan orqanizmində elə bir toxuma, üzv və sistem yoxdur ki, bu su ona müalicəvi təsir göstərməklə onun iş qabiliyyətinin bərpasına səbəb olmasın. Darıdağ suyu qanyaradıcı xüsusiyyətə malik olub, qan dövranı üzvlərinin fəaliyyətinə müsbət təsir edərək periferik qanın morfoloji tərkibini yaxşılaşdırır – leykositlərin faqositoz qabiliyyətini artırır, qanazlığını aradan qaldırır. Daxili ifrazat sistemini fəallaşdırır, vegetativ sinir fəaliyyətini gücləndirməklə mədə, qaraciyər, böyrək və ürək əzələsində mübadiləni sürətləndirərək onların funksional vəziyyətini normallaşdırır. Bu xüsusiyyətlərinə görə Darıdağ suyu mədə, öd kisəsi, qaraciyər və vegetativ sinir sistemi ilə əlaqəli başqa xəstəliklərin müalicəsində də geniş tətbiq edilir. Darıdağ suyunun maddələr mübadiləsinə təsirini öyrənən bir çox alimlər onun mübadilə pozğunluğundan yaranan artritlərə müalicəvi təsirini sübuta yetiriblər. Suyun təsirindən yaraların çirkdən tez təmizlənməsini, çətin sağalan yaraların qısa müddətə, həm də çapıqsız sağalmasını həkimlər onun antiseptik, faqositar və bakteriosit qabiliyyəti ilə əlaqələndirirlər. Müəyyən edilibdir ki, mərgümüşün litium, brom, maqnezium, radioaktiv elementlər və başqa əhəmiyyətli maddələrlə müştərək təsiri maddələr mübadiləsinin bərpasına, periferik sinir sisteminin fəallaşmasına müsbət təsir göstərir.

Darıdağ suyundan hələ qədim zamanlardan kustar şəkildə sümük-oynaq, əzələ sistemi xəstəliklərində, o cümlədən “duzlaşma” adlanan patologiyalar və onun müxtəlif fəsadlarında geniş istifadə edildiyini bildirən müəssisə direktoru onu da qeyd etdi ki, 1978-ci ildən fəaliyyətə başlayan Darıdağ Arsenli Su Müalicəxanası 2005-ci ildə müasir tələblərə uyğun yenidən qurularaq istifadəyə verilib. Həkim, müayinə otaqları və qapalı hovuzlardan ibarət olan müalicəxanada xəstələrin müayinəsi, müalicəsi və istirahəti üçün hərtərəfli şərait yaradılıb. Həkim və müayinə otaqları yeni mebel dəstləri ilə təchiz edilib, hovuzlarda döşəməyə mərmər plitələr düzülüb, havalandırma və işıqlandırma sistemləri quraşdırılıb. 1080 metr dərinlikdən çıxan 5 nömrəli bulaqdan arsenli su borular vasitəsilə qadın və kişilər üçün ayrı-ayrı qapalı hovuzlara nəql edilir. Bulağın gözündə suyun hərarəti 52 dərəcə, vannalarda isə 37-41 dərəcə olur. Burada arsenli su vannası qəbul etməklə revmatik, dəri, əzələ, sinir və dayaq-hərəkət sistemləri xəstəliklərinin ambulator müalicəsi aparılır. Müalicə müddəti gündə 10-12 dəqiqə olmaqla, 12-14 gündür. Darıdağ suyunun müvafiq qaydalara uyğun şəraitdə qablaşdırılmış və qurudulmuş formaları öz kimyəvi sabitliyini (tərkibini) saxladığı üçün mənbədənkənar müalicə müəssisələrində, hətta ev şəraitində də istifadəsinin mümkünlüyü onun dəyərini daha da artırır.

Bu tibb ocağında müalicə olunan vətəndaşlarla da həmsöhbət olduq. Bakı şəhər sakini Nuranə Qafarova aşağı ətraflarda şiş, dəridə ləkə, ağız boşluğunda diş ətinin qanaxmasından əziyyət çəkdiyini və ikinci ildir ki, bu müalicəxananın xidmətlərindən istifadə etdiyini, müalicənin yaxşı da nəticə verdiyini bildirdi. Sumqayıt şəhər sakini Aidə Camalova isə dedi ki, oynaq ağrıları ilə əlaqədar birinci dəfədir, buraya gəlir. Üçüncü gündür, vanna qəbul edir. İlkin nəticələrə görə, səhhətində olan problemlərin tezliklə aradan qalxacağına inanır. Söhbətimizə qoşulan digər müalicə olunanlar da yaradılan şəraitə, göstərilən qayğıya görə minnətdarlıqlarını bildirdilər.

Onu da qeyd edək ki, müalicəxananın xidmətlərindən təkcə ölkə vətəndaşları deyil, xarici ölkələrdən gələnlər də istifadə edirlər. Cari ilin ilk 9 ayında ötən ilin müvafiq dövrü ilə müqayisədə 31 faiz çox – 37 min 894 vanna qəbulu olub. Müalicəxanaya müraciət edənlərdən 274 nəfəri Türkiyə, Koreya, Gürcüstan, İran, Rusiya, Ukrayna və Qazaxıstan respublikalarından gələn xəstələrdir. Müalicəxanaya müraciət edənlərin sayı ildən-ilə artır. Bu məqsədlə müalicəxanada daxili imkanlar hesabına hər il cari təmir işləri aparılır, buraya müraciət edənlərin daha yaxşı müalicəsi və istirahəti üçün hər cür şərait yaradılır.

✍ Kərəm HƏSƏNOV

# Seçki marafonu

Bələdiyyə seçkiləri – 2014

**23 dekabr 2014-cü il Azərbaycan Respublikasında bələdiyyə seçkiləri günüdür.**

*Hörmətli seçicilər*

Azərbaycan Respublikasının Seçki Məcəlləsinə müvafiq olaraq, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən növbəti bələdiyyə seçkiləri 23 dekabr 2014-cü il tarixə təyin olunmuş və Seçki Məcəlləsinin 213.2-ci maddəsinə uyğun olaraq, 22 oktyabr 2014-cü il tarixdə "Azərbaycan" qəzetində dərc olunmuşdur.

Azərbaycan Respublikasında yerli özünüidarəni həyata keçirən bələdiyyələrin üzvləri nisbi çoxluq sistemi əsasında çoxmandatlı seçki dairələri üzrə seçilirlər.

**Seçki əraziləri üzrə aşağıdakı sayda bələdiyyə üzvləri seçilir:**

*əhalisi 500-dən az olan ərazilərdə 5 bələdiyyə üzvü;*

*əhalisi 500-dən 999-dək olan ərazilərdə 7 bələdiyyə üzvü;*

*əhalisi 1000-dən 4999-dək olan ərazilərdə 9 bələdiyyə üzvü ;*

*əhalisi 5000-dən 9999-dək olan ərazilərdə 11 bələdiyyə üzvü;*

*əhalisi 10000-dən 19999-dək olan ərazilərdə 13 bələdiyyə üzvü;*

*əhalisi 20000-dən 49999-dək olan ərazilərdə 15 bələdiyyə üzvü;*

*əhalisi 50000-dən 99999-dək olan ərazilərdə 17 bələdiyyə üzvü;*

*əhalisi 100000-dən 299999-dək olan ərazilərdə 19 bələdiyyə üzvü.*

**Naxçıvan Muxtar Respublikası üzrə 171 bələdiyyəyə 1453 nəfər üzv seçiləcəkdir.**

Bələdiyyələrin səlahiyyət müddəti 5 ildir. Bələdiyyələrin səlahiyyət müddətinin hesablanması səsvermənin keçirildiyi gündən başlanır və yeni seçilən bələdiyyələrin birinci iclas günü başa çatır. Bələdiyyə üzvlərinin səlahiyyətləri yalnız bələdiyyənin səlahiyyət müddətində qüvvədədir.

**Seçkilər günü 21 yaşı tamam olan (seçki günü də daxil olmaqla) və yaşı 21-dən yuxarı olan və müvafiq seçki dairəsində daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşları bələdiyyələrə üzv seçilə bilərlər.**

İrqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və başqa ictimai birliklərə mənsubiyyətindən və ya digər statusundan asılı olmayaraq, Azərbaycan Respublikası vətəndaşlarının seçmək, seçilmək və referendumda iştirak etmək hüququ vardır.

Vətəndaşların seçkidə iştirak hüquqlarının həyata keçirilməsinə maneolma, vətəndaşı namizədin lehinə imza atmağa məcburetmə və ya onun səs verməsinə maneolma, seçki komissiyalarının işinə müdaxiletmə və ya təsirgöstərmə, seçki sənədlərinin saxtalaşdırılması və ya saxta sənədlərin təqdim edilməsi, bilə-bilə səslərin düzgün hesablanmaması, səsvermənin nəticələrinin düzgün müəyyənləşdirilməməsi və ya səsvermənin gizliliyinin pozulması, başqa şəxslərin yerinə səs verilməsi, bir şəxs tərəfindən seçki qutusuna birdən artıq seçki bülleteninin salınması, seçkinin nəticələrinə təsir məqsədilə vəzifə səlahiyyətlərindən sui-istifadə edilməsi Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

**Bələdiyyə üzvlüyünə namizədlərin irəli sürülməsi qaydası**

Seçki dairəsi üzrə bələdiyyə üzvlüyünə namizədləri siyasi partiyalar, siyasi partiyaların blokları, həmin seçki dairəsində daimi yaşayan seçki hüququ olan Azərbaycan Respublikasının vətəndaşları irəli sürə bilərlər.

Bələdiyyələrə təkrar və əlavə seçkilərdə bələdiyyə üzvlüyünə namizədlər bu seçkilərin təyin edilməsi haqqında qərar rəsmi dərc olunduqdan sonra irəli sürülür.

İrəli sürülən namizəd yalnız bir bələdiyyəyə namizəd irəli sürülməsinə razılıq verə bilər.

Bələdiyyə üzvlüyünə namizədlərin irəli sürülməsinədək dairə seçki komissiyasının yaradılması başa çatmayıbsa, namizədin irəli sürülməsi haqqında bildiriş, müvafiq namizədlərin razılıq ərizələri və digər sənədlər Mərkəzi Seçki Komissiyasına göndərilir. Mərkəzi Seçki Komissiyası göstərilən sənədləri dairə seçki komissiyasının təşkilindən və sədrinin seçilməsindən sonra ona təqdim edir.

**Namizədin müdafiəsi üçün onun irəli sürüldüyü seçki dairəsinin ərazisində seçicilərin imzaları toplanmalıdır.**

**Bələdiyyə üzvlüyünə namizədin müdafiəsi üçün seçici imzalarının toplanması qaydası**

Müvafiq seçki ərazisi üzrə bələdiyyə üzvlüyünə namizəd kimi qeydə alınmaq üçün namizədliyi irəli sürülmüş hər bir vətəndaş:

*əhalisi 99999-dan çox olan ərazidə 150 seçici imzası;*

*əhalisi 49999-dan çox olan ərazidə 100 seçici imzası;*

*əhalisi 19999-dan çox olan ərazidə 75 seçici imzası;*

*əhalisi 9999-dan çox olan ərazidə 50 seçici imzası;*

*əhalisi 4999-dan çox olan ərazidə 30 seçici imzası;*

*əhalisi 4999-dan az olan ərazidə 15 seçici imzası toplamalıdır.*

**Namizədlərin öz təşəbbüsü ilə və ya bilavasitə seçicilər tərəfindən irəli sürülməsi**

Namizəd öz təşəbbüsü ilə və ya aktiv seçki hüququ olan seçicilər tərəfindən irəli sürülə bilər, o şərtlə ki, ərazisində namizədin dəstəklənməsi üçün zəruri olan imzaların yığıldığı və namizədin qeydə alınmasının nəzərdə tutulduğu müvafiq seçki komissiyasına bu barədə bildiriş göndərilsin.

**Bələdiyyə üzvlüyünə namizəd yalnız bir bələdiyyə üzvlüyünə namizəd kimi irəli sürülə və qeydiyyata alına bilər.**

Namizəd və ya namizədi irəli sürən seçicilərin təşəbbüs qrupu öz təşəbbüsü barədə müvafiq seçki komissiyasına yazılı bildiriş verir. Bildirişdə namizədi irəli sürən hər bir təşəbbüsçünün və namizədin soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yerinin ünvanı, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsi, bundan başqa, irəli sürülən namizədin əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü) göstərilməlidir.

**Bütün namizədlər bərabər hüquqa malikdirlər və bərabər öhdəliklər daşıyırlar.**

Bildirişlə birlikdə namizədin seçkili dövlət və ya bələdiyyə orqanında seçkili vəzifəyə seçiləcəyi halda həmin vəzifə ilə uzlaşmayan fəaliyyətə xitam verəcəyinə dair yazılı öhdəliyi olan ərizə də göndərilir. Bu ərizədə onun tərcümeyi-halına aid məlumatlar (soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yerinin ünvanı, təhsili, əsas iş və ya xidmət yeri (bu olmadıqda – fəaliyyət növü) göstərilir. Namizədlərin ödənilməmiş və ya üzərindən götürülməmiş məhkumluğu olduqda, ərizədə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddəsinin adı və nömrəsi, namizədin xarici ölkədə cinayət məsuliyyəti yaradan əməli olmuşdursa və bu haqda qanuni qüvvəyə minmiş məhkəmə hökmü çıxarılmışdırsa və bu əməl Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan cinayət məsuliyyəti yaradırsa, xarici ölkənin müvafiq qanununun adı göstərilməlidir. Namizədin ərizəsində Azərbaycan Respublikasının vətəndaşlığı haqqında məlumatla yanaşı, xarici ölkə vətəndaşlığının və başqa ölkələr qarşısında öhdəliklərinin olub-olmaması da göstərilməlidir.

**Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası**

# Həyatımızın ayrılmaz hissəsinə çevrilən texnologiyanın faydaları və ziyanları haqqında qısa araşdırma

***Texnologiyanın insanlara çox böyük faydası olduğu günümüzün həqiqətidir. Sənayenin inkişafında da texnologiyanın payı çox böyükdür. Texnologiyanın faydasını aşağıdakı kimi ümumiləşdirə bilərik: internet sayəsində dünyanın bir ucundan digər ucuna məlumatın sürətli bir şəkildə çatdırılması. İnsanların həyatına sürətli bir şəkildə nüfuz edən internet yalnız fərdlərin deyil, eyni zamanda təşkilatların da strukturlarına və iş quruluşlarına təsir etməkdədir.***

Texnologiyadan müasir günümüzdə hər sahədə istifadə olunur: məsələn, tibdə günbəgün təkmilləşən cihaz və aparatların icad edilməsini, təhsildə texnologiyadan geniş istifadə edilməklə məktəblərdə dərs izah etməyin asanlaşmasını, həm də vizual baxımdan şagirdlərin inkişafının təmin edilməsini və başqa faktorları sadalaya bilərik.

Texnologiya nəqliyyat sahəsində də çox faydalıdır. Əvvəllər yolları atlarla və ya yürüyərək aylarla, bəlkə də, illərlə gedirdilər. Hətta o zamanlardan bəhs edən filmlərdə insan bu mənzərələrə tamaşa edəndə tam anlaya bilmir ki, bu hal gerçəkdir, yoxsa təxəyyül. Texnologiya sayəsində biz çox uzaq bir yerə qısa zamanda getmək imkanı qazanmışıq. Bu səbəbdən inkişafın daha da dərinləşməsini arzulayır və bu yolda bütün imkanları səfərbər edirik.

Texnologiyanın faydaları ilə birlikdə zərərləri və bunun yol açdığı problemlər də yox deyil: nəqliyyat vasitələrinin günbəgün çoxalması və ətraf mühitin çirklənməsi, meşələrin kağız istehsalı, torpaq genişləndirilməsi, heyvandarlıq sahəsi yaratmaq kimi səbəblərlə yox edilməsi və sair.

Texnologiya məhsullarının az qala hamısı elektriklə işləyir. Elektriklə çalışan hər alət bir elektromaqnetik sahə əmələ gətirir. Bilindiyi kimi, insan beyninin də özünə aid elektromaqnetik sahəsi vardır. Çünki sinirlər neyronlar vasitəsilə elektrik xəbərdarlıqlarını beyinin müxtəlif yerlərinə çatdıraraq fəaliyyət göstərirlər. Bu səbəblə gündəlik həyatda istifadə etdiyimiz hər bir elektrikli cihaz mütləq bizdə mənfi təsirlər yaratmaq gücünə malikdir. Məsələn, mobil telefon ilə danışma ən az zərər verəcək şəkildə danışma müddəti həkimlər tərəfindən maksimum 5 dəqiqə olaraq açıqlanıb. Rus elm adamlarının 5-12 yaşlı uşaqlar üzərində keçirdikləri 5 illik təcrübələr zamanı məlum olub ki, telefon istifadə edən uşaqlar mobil telefon istifadə etməyən yaşıdları ilə müqayisədə daha çox diqqət və yaddaş pozğunluğu, huşunutirmə kimi hallarla qarşılaşırlar. Amerikada 1990-cı illərin sonunda doğulmuş 13 min uşaq üzərində araşdırma aparılıb. Müəyyən olunub ki, hamilə ikən gündə 2-3 dəfə mobil telefon istifadə edən anaların uşaqlarında davranış pozğunluğu 54 faiz yüksək olur. Uşağa 7 yaşından əvvəl mobil telefon verilirsə, onda davranış pozğunluğu 80 faiz daha çox yaranır. Mobil telefonun təhlükəsindən qorunmaq üçün danışarkən mümkün qədər diafon və ya qulaqlıqdan istifadə etmək lazımdır. Mobil telefonun yaydığı elektromaqnit dalğa miqdarı beyin istiliyinin artmasına səbəb olur. Beyindəki bu maqnetik nizamsızlıq beyin hüceyrələrinin ölməsinə və xüsusilə qulaqdakı bəzi hissələrin funksiyasının pozulmasına gətirib çıxarmaqdadır. Bu da insanda duyğu itkisi və sair kimi problemlərə gətirib çıxarır. Aparılan araşdırmalar bir elektrikli alətlərin xərçəng riskini artırdığını göstərir. Bu cür vəziyyətlərdə ən çox təsirə məruz qalan toxumalar beyin mayesi və qan, ikinci dərəcədə təsirlənən toxumalar isə göz, göz mayesi, troid, əzələ, mədə-bağırsaq traktı və sair toxumalardır. Bu yazımızda cəmiyyətimizin ən çox istifadə etdiyi texnologiya vasitələrinin ziyanlarını qismən də olsa, nəzərinizə çatdırmaq istərdik: müasir gənclər musiqiyə qulaqlıq vasitəsilə qulaq asırlar və bu da gələcəkdə kütləvi karlığa səbəb ola biləcək bir amildir. Adi qulaqlıqlarla maksimum səviyyədən bir az aşağı səslə musiqiyə qulaq asmaq zərərsizdir. Lakin bu, o demək deyil ki, günün bütün saatı həmin qulaqlıq sizin qulağınızda olmalıdır. Ətrafdakı səsi batırmaq üçün qulaqlığa çox səs verilməsi isə təhlükəlidir.

Kompüter asılılığının təsirləri nəticəsində yuxu nizamsızlığı, iş əmsalının aşağı düşməsi, ictimai əlaqələrin zəifləməsi, təkbaşına vaxtkeçirmə meylinin artması, ailə münasibətlərində pozulma və sair bu kimi problemlər ortaya çıxır. Fiziki olaraq isə fəqərə sürüşməsi, boyun yırtığı, bel yırtığı, bilək, diz və dirsək əhəngləşməsi, çiyin və boyun tutulması, baş, boyun və kürək ağrıları, yorğunluq, əsəbilik və göz yorğunluğu görülməkdədir. Kompüter ekranları gənc insanların gözündə pərdə meydana gəlməsinə səbəb olur, yəni göz vaxtından əvvəl yaşlanır.

*Sadalanan xoşagəlməz hallarla üzləşməmək üçün gündəlik məşğuliyyətimizi tənzimləməyi bacaraq.*

**Nərgiz İSMAYILOVA**

***Salyan rayonundakı Muğan arxeoloji mədəniyyətinin mərkəzi kimi tanınan Babazanlı ərazisində son illər aparılan araşdırmalar zamanı buradan 2800 il bundan əvvələ aid yaşayış məskənləri və maddi-mədəniyyət nümunələri aşkar edilmişdir.***




## Şərur Xalq Yallı Ansamblı Muğan Babazanlı abidələrinin 2800 illiyində iştirak etmişdir

Bu münasibətlə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 29 oktyabr 2013-cü il tarixdə "Muğan Babazanlı abidələrinin 2800 illiyinin qeyd edilməsi haqqında" Sərəncam imzalamışdır. Sərəncama uyğun olaraq, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası və Salyan Rayon İcra Hakimiyyəti abidələrin 2800 illiyinin qeyd olunmasına dair tədbirlər planı hazırlamışdır. Tədbirlər planına əsasən, Salyan rayonunda milli tarixin Azərbaycançılıq məfkurəsi baxımından müstəsna əhəmiyyəti olan Muğan Babazanlı abidələrinin 2800 illiyinə həsr olunmuş tədbirlər keçirilmişdir.

Şərur Xalq Yallı Ansamblı bu tədbirlərdə iştirak etmişdir. Oktyabrın 24-də adıçəkilən abidələrin 2800 illiyinə həsr olunmuş nümayiş-yürüş keçirilmişdir. Qədim tariximizin canlandırıldığı nümayiş-yürüşdə Şərur Xalq Yallı Ansamblı da iştirak etmişdir. Həmin gün rayonun Heydər Əliyev Parkında böyük konsert proqramına qatılan Şərur Xalq Yallı Ansamblının çıxışı alqışlarla qarşılanmışdır.

Abidələrin 2800 illiyinin qeyd olunması tədbirlərində millət vəkilləri, alimlər, ziyalılar da iştirak etmiş, xalqımızın zəngin mədəniyyətindən və qədim tarixindən söhbət açmışlar.

Oktyabrın 25-də Salyan Rayon İcra Hakimiyyətində görüşdən sonra Şərur Xalq Yallı Ansamblı Naxçıvana qayıtmışdır.

Məlumat üçün qeyd edək ki, tarix-mədəniyyət tədbirlərində Şərur Xalq Yallı Ansamblı ilə bərabər, Masallı rayonunun "Halay" Folklor Ansamblı, İsmayıllı və Lerik rayonlarının folklor kollektivləri də iştirak etmişlər.

**Əli RZAYEV**

***İtmişdir***

Babək rayonunun Şıxmahmud kəndində yaşayan Mənsimov İlqar Əhməd oğlunun adına olan 683A inventar nömrəli, 10311018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 914